# MÜBARİZ KEŞİKDƏ

1933-cü ildən çıxır

31 may 2018-ci il
Cümə axşamı

№ 21 (3385)

Qiymәti 40 qәpik

AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI




**Polis, daxili işlər orqanları Azərbaycan dövlətinin əsas sütunlarından, dayaqlarından biridir. Polis Azərbaycan dövlətinə, dövlətçiliyinə xidmət edir. Azərbaycanın dövlət müstəqilliyinə xidmət edir. Hər bir Azərbaycan vətəndaşına xidmət edir.**

## PREZİDENT İLHAM ƏLİYEV AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNİN ŞƏRƏFİNƏ UCALDILMIŞ ABİDƏNİ ZİYARƏT EDİB

Mayın 28-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Azərbaycan Xalq Cümhuriyyətinin şərəfinə paytaxtın İstiqlaliyyət küçəsində ucaldılmış abidəni milli bayram - Respublika Günü münasibətilə ziyarət edib.

Abidənin ətrafında fəxri qarovul dəstəsi düzülüb.

Dövlətimizin başçısı abidənin önünə əklil qoyub.

Azərbaycan Respublikasının dövlət himni səsləndirilib.





## AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNİN 100 İLLİK YUBİLEYİ MÜNASİBƏTİLƏ RƏSMİ QƏBUL TƏŞKİL OLUNUB

### PREZİDENT İLHAM ƏLİYEV RƏSMİ QƏBULDA İŞTİRAK EDİB

Mayın 28-də Heydər Əliyev Mərkəzində Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi münasibətilə rəsmi qəbul təşkil olunub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva rəsmi qəbulda iştirak ediblər.

Azərbaycanın dövlət himni səsləndirilib.

Dövlətimizin başçısı rəsmi qəbulda nitq söyləyib.

Ölkəmizin rəhbəri rəsmi qəbul iştirakçılarını və bütün Azərbaycan xalqını Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi münasibətilə təbrik edib.

Rəsmi qəbul konsert proqramı ilə davam edib.

## BAKI KRİSTAL ZALINDA AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNİN 100 İLLİK YUBİLEYİNƏ HƏSR EDİLƏN TƏNTƏNƏLİ KONSERT KEÇİRİLİB

### PREZİDENT İLHAM ƏLİYEV KONSERTDƏ OLUB

Mayın 28-də Bakı Kristal Zalında Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyinə həsr edilən təntənəli konsert keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ailə üzvləri konsertdə olublar.

Tədbirin sonunda Dənizkənarı Milli Parkda möhtəşəm bayram atəşfəşanlığı olub.

**Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mayın 24-də Bakı şəhərinin Qaradağ rayonunun Lökbatan qəsəbəsinin şimal-şərqində Lökbatan-Qobu yolunun 3 kilometr şərq hissəsində məcburi köçkünlər üçün salınmış "Qobu Park" yaşayış kompleksinin açılışında iştirak ediblər.**

*Mayın 26-da ADA Universitetində məzun günü keçirilib.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva tədbirdə iştirak ediblər.*

Azərbaycan Prezidenti İlham Əliyev mayın 29-da Səngəçal terminalında Cənub Qaz Dəhlizinin rəsmi açılış mərasimində iştirak edib.

Prezident İlham Əliyev mərasimdə nitq söyləyib.

Açılış mərasimində ABŞ Dövlət katibinin köməkçisinin enerji məsələləri üzrə müşaviri xanım Sandra Oudkirk çıxış edib.

Böyük Britaniya Baş nazirinin Azərbaycan üzrə ticarət elçisi Baronessa Emma Nikolson Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Baş naziri xanım Tereza Meyin mərasim iştirakçılarına müraciətini oxuyub.

## PREZİDENT İLHAM ƏLİYEV CƏNUB QAZ DƏHLİZİNİN RƏSMİ AÇILIŞ MƏRASİMİNDƏ İŞTİRAK EDİB

Səfir Erkan Özoral Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın müraciətini səsləndirib.

Sonra Neft İxrac Edən Ölkələr Təşkilatının (OPEC) baş katibi Məhəmməd Barkindo, Qaz İxrac Edən Ölkələr Forumunun baş katibi Yuri Sentyurin və BP Group Upstream-in baş icraçısı Bernard Luney çıxış ediblər.

Daha sonra "Şahdəniz 2" Cənub Qaz Dəhlizi layihələri haqqında BP tərəfindən hazırlanmış videoçarx təqdim olunub.

Sonda Prezident İlham Əliyev Cənub Qaz Dəhlizinin açılışını edib.

**Mayın 29-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Bakı Ekspo Mərkəzində XXV yubiley Beynəlxalq "Xəzər Neft və Qaz-2018" sərgisi ilə tanış olublar.**

**Azərbaycan Prezidenti İlham Əliyev mayın 23-də Bakı şəhəri və onun qəsəbələrində təhsil müəssisələrinin təmiri və tikintisi ilə bağlı əlavə tədbirlər haqqında sərəncam imzalayıb.**

❖❖❖❖❖

*Dövlətimizin başçısı mayın 23-də milli bayram – Müstəqillik Günü və Gürcüstan dövlətçiliyinin bərpasının 100 illiyi münasibətilə Prezident zati-aliləri cənab Giorgi Marqvelaşviliyə təbrik məktubu göndərib.*

❖❖❖❖❖

**Dövlətimizin başçısı mayın 24-də məhkum edilmiş bir sıra şəxslərin Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi münasibətilə əfv olunması haqqında sərəncam imzalayıb.**

❖❖❖❖❖

*Ölkəmizin rəhbəri mayın 24-də Azərbaycan Respublikasında sahibkarlıq fəaliyyəti və sahibkarlarla iş sahəsində fərqlənən bir qrup şəxslərin mükafatlandırılması haqqında sərəncam imzalayıb.*

❖❖❖❖❖

**Mayın 24-də Azərbaycan Prezidenti İlham Əliyev Qaradağ rayonunun Lökbatan-Güzdək avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında sərəncam imzalayıb.**

❖❖❖❖❖

*Mayın 25-də ölkəmizin rəhbəri Azərbaycan ədəbiyyatının inkişafında böyük xidmətlərinə görə Elmira Hüseyn qızı Axundovaya "Xalq yazıçısı" fəxri adı verilməsi haqqında sərəncam imzalayıb.*

❖❖❖❖❖

**Dövlətimizin başçısı mayın 25-də Azərbaycan Respublikasının Maliyyə Monitorinqi Xidmətinin yaradılması haqqında sərəncam imzalayıb.**

❖❖❖❖❖

*Ölkəmizin rəhbəri mayın 25-də milli bayram münasibətilə Efiopiya Federativ Demokratik Respublikasının Prezidenti zati-aliləri cənab Mulatu Teşomeyə təbrik məktubu göndərib.*

❖❖❖❖❖

**Mayın 27-də Azərbaycan Prezidenti İlham Əliyev Fransa Respublikasının Avropa və xarici işlər naziri Jan-İv Lö Drianı qəbul edib.**

❖❖❖❖❖

*Mayın 27-də dövlətimizin başçısı Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Baş nazirinin Azərbaycan üzrə ticarət elçisi Baronessa Emma Nikolsonu qəbul edib.*

❖❖❖❖❖

**Mayın 27-də ölkəmizin rəhbəri Azərbaycan Respublikasının mədəniyyət xadimlərinə fəxri adların verilməsi haqqında sərəncam imzalayıb.**

❖❖❖❖❖

*İspaniyanın Kralı VI Felipe, Macarıstan Respublikasının Prezidenti Yanoş Ader, Kuba Respublikası Dövlət Şurasının və Nazirlər Şurasının Sədri Migel Dias-Kanel Bermudes, Yunanıstan Respublikasının Prezidenti Prokopis Pavlopulos, Yaponiyanın İmperatoru Akihito, İsveçrə Konfederasiyasının Prezidenti Alain Berset, Finlandiya Respublikasının Prezidenti Sauli Niinistö, İtaliya Respublikasının Prezidenti Sergio Mattarella, Fransa Respublikasının Prezidenti Emmanuel Makron, eləcə də digər dövlət və hökumət başçıları Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasının 100 illiyi münasibətilə Azərbaycan Prezidenti İlham Əliyevə təbrik məktubları göndəriblər.*

❖❖❖❖❖

**Ölkəmizin rəhbəri mayın 28-də Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Baş nazirinin Azərbaycan üzrə ticarət elçisi Baronessa Emma Nikolsonu qəbul edib.**

❖❖❖❖❖

*Mayın 29-da Azərbaycan Prezidenti İlham Əliyev ABŞ Dövlət katibinin köməkçisinin enerji məsələləri üzrə müavini Sandra Oudkirkin başçılıq etdiyi nümayəndə heyətini, Qaz İxrac Edən Ölkələr Forumunun baş katibi Yuri Sentyurini, "Microsoft" şirkətinin Mərkəzi və Şərqi Avropa üzrə prezidenti Filip Roqu qəbul edib.*

❖❖❖❖❖

**Azərbdaycan Prezidenti İlham Əliyev mayın 29-da XXV Beynəlxalq "Xəzər Neft və Qaz" sərgi və konfransının iştirakçılarını təbrik edib.**

## DİN MƏTBUAT XİDMƏTİNİN MƏLUMATI

**Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırığına əsasən, mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq, daxili işlər naziri, general-polkovnik Ramil Usubov mayın 25-də və 26-da Bərdə şəhərində növbəti qəbul keçirib.**

Rayon Polis Şöbəsində baş tutan tədbirdə Bərdə, Ağcabədi, Tərtər, Ağdam, Şuşa, Laçın, Beyləqan, Füzuli, Xocavənd, Goranboy, Xocalı, Naftalan şəhər və rayonlarından, eyni zamanda, həmin bölgədə məskunlaşmış qaçqın və məcburi köçkünlərdən müraciət edən 59 vətəndaş ilə görüşən nazir onların polis orqanlarının fəaliyyəti ilə bağlı müraciətlərini şəxsən dinləyib, problemlərinin qanunvericiliyə uyğun şəkildə həlli üçün aidiyyatı baş idarə, idarə və xidmət, həmçinin ərazi polis orqanlarının rəislərinə konkret tapşırıqlar verib. Daxili işlər orqanlarının fəaliyyəti ilə bağlı olan məsələlərin əksəriyyəti elə yerindəcə öz həllini tapıb.

Qəbulda iştirak edən vətəndaşlar bölgələrdə mütəmadi olaraq, keçirilən belə görüşlərin təşkilinə, müvafiq dövlət orqanlarının rəhbərləri tərəfindən müraciətlərinə diqqətlə və həssas yanaşılmasına görə ölkə başçısına minnətdarlıq edib, onun Azərbaycan Respublikasının tərəqqisinə, iqtisadi dirçəlişinə, beynəlxalq imicinin daha da yüksəldilməsinə yönəlmiş siyasətini bundan sonra da dəstəkləyəcəklərini bildiriblər.

*26 may 2018-ci il*

## DİN-də CÜMHURİYYƏTİN 100 İLLİYİNƏ HƏSR OLUNMUŞ TƏDBİR KEÇİRİLİB

Mayın 25-də Daxili İşlər Nazirliyində Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyinə həsr olunmuş təntənəli mərasim keçirilib.

Tədbiri giriş sözü ilə respublikanın daxili işlər naziri, general-polkovnik Ramil Usubov açıb.

*Bax səh.2.*

# DİN-də CÜMHURİYYƏTİN 100 İLLİYİNƏ HƏSR OLUNMUŞ TƏDBİR KEÇİRİLİB

**Mayın 25-də Daxili İşlər Nazirliyində Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyinə həsr olunmuş təntənəli mərasim keçirilib.**

**Tədbiri giriş sözü ilə respublikanın daxili işlər naziri, general-polkovnik Ramil Usubov açıb.**

**Sonra dövlət himni səsləndirilib.**

Nazir iyirminci əsrin əvvəllərində regionda yaranmış mürəkkəb geosiyasi şəraitdə Şərqdə ilk dəfə məhz Azərbaycanda demokratik respublika yaradılmasını qədim dövlətçilik ənənələrinə malik xalqımızın qəhrəmanlıqlarla zəngin tarixinin ən şanlı səhifələrindən biri kimi dəyərləndirib. O, möhtərəm Prezidentimiz cənab İlham Əliyevin rəhbərliyi ilə bu gün özünün ən qüdrətli dövrünü yaşayan, bölgədə söz, dünyada nüfuz sahibinə çevrilən gənc dövlətimizin Azərbaycan Xalq Cümhuriyyətinin ənənələrini, müstəqillik, suverenlik, demokratik ideallarını və prinsiplərini layiqincə davam etdirdiyini xüsusi vurğulayıb.



**Bakı Dövlət Universitetinin kafedra müdiri, tarix elmləri doktoru, professor Anar İsgəndərov** qısa zaman kəsiyində milli hökumətin gördüyü işlər, Nuru Paşanın komandanlığı altında Qafqaz İslam Ordusunun şərəfli döyüş yolu barədə mərasim iştirakçılarına ətraflı məlumat verib. Qeyd olunub ki, görkəmli dövlət və ictimai xadimlərin gərgin diplomatik səyləri nəticəsində Azərbaycan Xalq Cümhuriyyəti Demokratik Respublika formasında özünü təsdiqləmiş olub.



Diqqətə çatdırılıb ki, 1918-ci il may ayının 28-də Azərbaycanın müstəqilliyini bəyan edən İstiqlal bəyannaməsinin qəbulundan sonra cümhuriyyətin ilk parlamenti seçilib, ölkənin sərhədləri müəyyənləşdirilib, bayrağı, himni və gerbi təsdiqlənib, ana dili dövlət dili elan edilib, dövlət quruculuğu sahəsində əhəmiyyətli işlər görülüb, ölkənin ərazi bütövlüyünün və milli təhlükəsizliyinin təmini üçün mühüm tədbirlər həyata keçirilib.

Məruzədə xüsusilə vurğulanıb ki, məhz ulu öndər Heydər Əliyevin rəhbərliyi altında bu ənənələr davam və inkişaf etdirilib, milli intibahın və özünüdərkin əsasları yaradılıb, ümummilli liderin yüksək təşkilatçılıq və liderlik keyfiyyətləri, prinsipial mövqeyi və iradəsi nəticəsində Azərbaycanın müstəqilliyinin dönməzliyi təmin edilib.

Tədbirə yekun vuran nazir R.Usubov Azərbaycan Xalq Cümhuriyyəti dövründə yarımçıq qalmış bir çox işlərin, gerçəkləşməyən planların Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən ardıcıl, məqsədyönlü şəkildə həyata keçirildiyini, ordu, dövlət quruculuğu, qlobal infrastruktur layihələri, uğurlu sosial, iqtisadi siyasət nəticəsində güclənmiş dövlətimizin, qüdrətli ordumuzun sonda torpaqlarımızı işğaldan azad edəcəyinə, ərazi bütövlüyümüzü, suverenliyimizi bərpa edəcəyinə əminliyini bildirib.

***25 may 2018-ci il***



***Mayın 29-da DİN İdman Cəmiyyətinin sədri, polis polkovniki, Olimpiya, dünya və Avropa çempionu, respublikanın əməkdar idman ustası Zemfira Meftaxetdinovanın 55 yaşı tamam oldu. Bu münasibətlə DİN-də keçirilən tədbirdə daxili işlər naziri, general-polkovnik Ramil Usubov onu təbrik edib, Azərbaycan bayrağını mötəbər beynəlxalq arenalarda dalğalandıran dünya şöhrətli idmançımızın həm də daxili işlər orqanlarında idmanın inkişafında və təbliğində xüsusi rolunu vurğulayıb.***

***Ulu öndərimizin diqqət və qayğısı ilə həyata keçirilən, möhtərəm dövlət başçımızın uğurla davam və inkişaf etdirdiyi idman siyasəti nəticəsində bu gün Azərbaycanın dünyada idman ölkəsi kimi tanındığına, bir çox möhtəşəm beynəlxalq tədbirlərin ölkəmizdə keçirilməsinin artıq ənənə halı aldığına diqqət çəkən nazir R.Usubov təmsilçilərimizin bu gün dünyanın ən güclüləri sırasında olduqlarını, polis polkovniki Zemfira Meftaxetdinovanın ilk sırada yer tutaraq müstəqilliyimiz dövründə Sidney və Afina olimpiadalarında qazandığı tarixi qələbələri nəzərə çatdırıb.***

***General-polkovnik Ramil Usubov bu nailiyyətlərə qədər DİN İdman Cəmiyyətinin yetirməsi kimi Z.Meftaxetdinovanın dünya və Avropa çempionatlarında ölkə idmanının şərəfini layiqincə qoruduğunu, 1994-cü ildən polis zabiti kimi bu qurumun sıralarında müxtəlif vəzifələrdə çalışdığını, daxili işlər orqanları əməkdaşlarının fiziki hazırlığının artırılması üçün böyük əmək sərf etdiyini, xidmətlərinin dövlət tərəfindən "Şöhrət" ordeni, "Tərəqqi" medalı ilə qiymətləndirildiyini məmnunluqla xatırladıb, təltif olunduğu DİN-in "Fəxri fərman"ını ona təqdim edib.***

***Barəsində deyilən xoş sözlərə, ölkə və DİN rəhbərliyinin xüsusi diqqət və qayğısına görə minnətdarlığını bildirən Zemfira Meftaxetdinova idmanımızın inkişafı üçün bundan sonra da əlindən gələni əsirgəməyəcəyini deyib.***

# DÜNƏNİMİZ VƏ SABAHIMIZ ÜÇÜN

**Saf, məsum, dünyanın bərkinə-boşuna düşməmiş, öz nağıl dünyalarında xoşbəxt bir gələcək üçün yaşayan uşaqlar, təəssüf ki, əsrlər boyu zorakılıqlara, deportasiyaya və soyqırımlara məruz qalıblar. Baş vermiş müharibələr, dini, irqi və etnik zəmində olan toqquşmalar yüz minlərlə uşağı valideyn himayəsindən məhrum edib, onların həyatına son qoyub. Ən böyük haqsızlıqlardan biri olan uşaq alveri, orqan alveri kimi insanlığa yaraşmayan hərəkətlər hələ də davam etməkdədir.**

Gələcəyin qurucuları olan uşaqları amansızlıqlardan, haqsızlıqlardan qorumaq bəşəriyyəti daim narahat edən məsələlərdən olub.

1950-ci ildə BMT Assambleyası tərəfindən Uşaqların Beynəlxalq Müdafiəsi gününün qeyd olunması qərara alınıb. "Qadınların Beynəlxalq Konfransı"nda uşaq hüquqlarının təmin edilməsi ilə bağlı təkliflər səslənib və elə həmin tədbirdə də ***1 iyun Uşaqların Beynəlxalq Müdafiəsi Günü*** kimi tarixə düşüb.

Xalqımızın gözəl milli adət-ənənələrindən biri də budur ki, valideynlər uşaqlara xüsusi qayğı, diqqət göstərirlər, böyüdüb ərsəyə çatdırmaqla işlərini bitmiş hesab etmir, tərbiyə və təhsil verməyi həyatlarının mənası və məqsədi sayırlar.

Ölkəmizdə uşaq problemlərinin həlli dövlət siyasətinin prioritet istiqamətlərindəndir. Əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş, bu gün möhtərəm Prezidentimiz tərəfindən uğurla davam etdirilən dövlət uşaq siyasəti onların hərtərəfli inkişafının təmin edilməsinə yönəlmişdir. Uşaqlara dövlət səviyyəsində göstərilən diqqət və qayğı gələcəkdə Vətənə layiqli vətəndaş kimi yetişmələrinə zəmin yaradır.

Bu yöndə Heydər Əliyev Fondunun dəyərli fəaliyyətini, taleyimizə sahib çıxacaq sağlam əqidəsi olan nəslin təlim-tərbiyəsi, normal mühitdə böyüməsi, oxuması üçün gördüyü işləri minnətdarlıqla qeyd etmək lazımdır.

Gələcək nəslin sağlam ruhda yetişməsində Azərbaycan Polisinin də əməyi danılmazdır. Uşaqların sağlamlığına və mənəviyyatına zidd olan vərdişlərin, məcburi əməyə cəlb olunmalarının və ümumilikdə onların hüquqlarının qorunması istiqamətində daxili işlər orqanları əməkdaşları gərəkli fəaliyyət göstərirlər. Orta məktəblərdə narkomaniyaya və pis vərdişlərə qarşı mübarizə, uşaqların təhsildən yayınmalarının qarşısını almaq üçün görülən tədbirlər polis tərəfindən atılan ən ümdə addımlardır. Polis əməkdaşlarının, veteranların fədakar xidməti, qəhrəmanlıqlar göstərmiş həmkarlarımızın, hərbi qulluqçuların belə tədbirlərdə fəal iştirakı, şəhidlərimizin örnək həyatı, əməlləri, əsl vətənpərvərlik, vətəndaşlıq məktəbidir.

Minlərlə uşaq məhz qəhrəman həmkarlarımızın fədakarlığı sayəsində cinayətkarların pəncəsindən, cinayətkarlıq bataqlığından xilas edilib.

***Uşaqlar bizim əzizimiz, dostumuz, bu günümüz, sabahımızdır. Vətəni əmanət edəcəyimiz bu qiymətli varlıqlara elə Vətən qədər də sevgi, sədaqət və əlbətdə ki, sayğı göstərməliyik.***

*Aytəkin Nəcəfova,*
*polis polkovnik-leytenantı*

# MÜSƏLMAN ŞƏRQİNDƏ İLK RESPUBLİKA
# AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİ

**Anar İsgəndərov,**
**Bakı Dövlət Universitetinin kafedra müdiri, tarix elmləri doktoru, professor**

**Əvvəli ötən sayımızda.**

Noyabrın 16-da Milli Şura beş aylıq fasilədən sonra yenidən fəaliyyətə başladı. Azərbaycan hökuməti təhrikçi hücumlara baxmayaraq, dövlət quruculuğu işini davam etdirir, parlamentin açılışına hazırlaşırdı. Parlament açılanadək onun funksiyasını Milli Şura yerinə yetirirdi. Parlamentin əsas özəyini keçmiş Milli Şuranın 44 üzvü təşkil edirdi. Daha 36 deputat isə keçmiş milli komitələrin xətti ilə şəhər və qəzalarda seçilmişdi. Azərbaycan parlamenti 120 deputatdan ibarət olmalı, milli tərkibə uyğun olaraq, 80 yer azərbaycanlılara, 21 yer ermənilərə, 10 yer ruslara verilməli idi. Yəhudi, alman, gürcü və polyak icmasının hərəsi üçün 1 yer, Həmkarlar İttifaqı Şurası və Neft Sənayeçiləri İttifaqı üçün 3 yer nəzərdə tutulmuşdu. Respublika ərazisində yaşayan bütün xalqların və hər iki cinsdən olan vətəndaşların seçki hüququ təsbit edildi. Azərbaycan bütün Şərqdə qadınlara seçki hüququ verən ilk dövlət oldu.

1918-ci il dekabrın 7-də Azərbaycan parlamenti təntənəli iclasla açıldı. F.X.Xoyski hakimiyyəti parlamentə təhvil verdi. Ciddi müzakirələrdən sonra Türkiyədə danışıqlar aparan Ə.M.Topçubaşov parlamentin sədri, H.Ağayev sədrin birinci müavini, R.Vəkilov isə katib seçildilər. Parlamentin qarşısında duran mühüm vəzifələrdən biri yeni hökuməti təşkil etmək idi. Hökumətin təşkili yenidən F.X.Xoyskiyə tapşırıldı. Dekabrın 26-da hökumətin tərkibi elan edildi. Koalisyon hökumətin tərkibində 3 nəfər rus var idi, ermənilər isə onlara təklif olunan 2 nazir kürsüsündən imtina etdilər.

Yeni hökumətin təşkilindən iki gün sonra dekabrın 28-də müttəfiqlərin Bakıdakı nümayəndəsi general V.Tomson elan etdi ki, F.X.Xoyskinin başçılığı ilə yaradılmış Azərbaycan hökumətini yeganə qanuni hakimiyyət orqanı hesab edir. General V.Tomsonun rus Milli Şurasına Azərbaycan hökumətini tanımaq təklifi bu qurum tərəfindən qəbul edilmədi.

Biçeraxovun dəstəsinin dövlət çevrilişi cəhdinin üstü açıldıqdan sonra Azərbaycan hökumətinin tələbi ilə general V.Tomson «Qafqaz-Xəzər» hökumətini qanundan kənar elan edib, 48 saat müddətində Bakıdan uzaqlaşdırdı, daha sonra isə erməni hərbi hissələri tərksilah edilib buraxıldı.

Beləliklə, 1918-ci ilin dekabrından etibarən ingilis komandanlığı Bakıda qoyulan məhdudiyyətləri tədricən azaltmağa başladı: Azərbaycan polisi, su nəqliyyatı və neft sənayesi, maliyyə idarələri, mətbuat üzərində nəzarət ləğv olundu. 1919-cu ilin aprelində Bakıda ingilis general-qubernatorluğunun ləğvi ilə əlaqədar Gəncədə təşkil olunmuş ilk Azərbaycan alayı paytaxta daxil oldu və xalq onu təntənə ilə qarşıladı.

1919-cu ilin aprelindən başlayaraq, ingilislər Paris sülh konfransının şərtlərinə uyğun olaraq, Qafqazı tərk etməyə başladılar və bu proses avqustun ortalarında başa çatdı. Azərbaycan hökuməti ingilis müdaxiləsi qarşısında nəinki öz varlığını qoruya bildi, həm də ingilis komandanlığını şəhərin idarəçiliyindən uzaqlaşdırmağa nail oldu. Lakin ingilislərin Bakını tərk etməsi, bir tərəfdən Azərbaycanın müstəqilliyini möhkəmləndirirdisə, digər tərəfdən Sovet Rusiyasının keçmiş imperiyanı əvvəlki sərhədlər çərçivəsində bərpa etmək istəyini sürətləndirdi. Qafqazda yaranmış müstəqil dövlətlər arasında mövcud olan ziddiyyətlər, ilk növbədə ərazi-sərhəd məsələlərindəki ziddiyyətlər xarici təhlükəni reallaşdırırdı.

1919-cu il aprelin 25-də Tiflisdə Azərbaycan, Dağıstan, Gürcüstan və Ermənistan nümayəndələrinin iştirakı ilə Qafqaz konfransı işə başladı. Konfransda siyasi, iqtisadi və maliyyə məsələləri, eləcə də sərhəd problemləri müzakirə olundu. Konfransın gedişində bu ölkələr arasında ərazi-sərhəd məsələləri ilə bağlı kəskin ziddiyyətlərin mövcud olması məlum oldu. Keçmiş çar generalı Denikinin könüllü ordusunun Dağıstana hücumu ilə konfrans öz işini dayandırmağa məcbur oldu.

«Vahid və bölünməz Rusiya» sərhədlərini bərpa etmək iddiasında olan Denikin 1919-cu ilin yazında Dağıstan Dağlılar Respublikasına soxularaq Dərbəndi işğal etdi. Çar generalının Azərbaycana təcavüzkar niyyətdə olduğu aşkara çıxdı. Parlamentin fövqəladə iclasında qəbul olunmuş qərara əsasən, sərhədlərin təhlükəsizliyini təmin etmək məqsədilə Dövlət Müdafiə Komitəsi yaradıldı və bütün hakimiyyət onun ixtiyarına keçdi.

Denikin təhlükəsi Gürcüstanı da ciddi narahat etdiyindən iyunun 16-da Gürcüstanla Azərbaycan arasında hərbi müdafiə paktı imzalandı. Bu pakta görə Azərbaycan və Gürcüstanın istiqlaliyyətinə və ərazi bütövlüyünə hər hansı dövlət tərəfindən təcavüz olunduğu təqdirdə onlar bir-birinə hərbi yardım göstərməli idilər. Üç il müddətinə bağlanan hərbi pakta Ermənistan iki həftə ərzində qoşula bilərdi. Lakin Ermənistan Denikinlə gizli müqavilə imzalamağı daha üstün tutdu. Hərbi pakta görə, Azərbaycan Gürcüstandan 12 kiçik top, 12 dağ topu, 24 pulemyot, 3 min beşaçılan tüfəng, 211 qılınc, 795 nizə və s. hərbi ləvazimat aldı.

Birinci Dünya müharibəsi 1918-ci ilin noyabrında başa çatsa da, onun nəticələrini reallaşdırmaq uzun bir vaxt tələb edirdi. Qalib dövlətlər müharibədən sonrakı dünyanın vacib məsələlərini həll etmək üçün Parisdə beynəlxalq sülh konfransının çağırılmasına qərar verdilər.

Azərbaycan parlamenti Paris sülh konfransında iştirak etmək üçün tam səlahiyyətli və geniş hüquqlara malik nümayəndə heyəti göndərmək haqqında qərar qəbul etdi. Nümayəndə heyətinə rəhbərlik parlamentin sədri Ə.M.Topçubaşova tapşırıldı. Azərbaycan nümayəndə heyətinin Paris sülh konfransında iştirak etməkdə əsas məqsədi dünya dövlətləri tərəfindən Azərbaycan Xalq Cümhuriyyətinin tanınmasına nail olmaq idi. Konfransda iştirak etmək üçün 1919-cu ilin yanvarından icazə gözləyən Azərbaycan nümayəndə heyəti üç aylıq gərgin diplomatik-siyasi mübarizədən sonra ingilislərin köməyi ilə mayın əvvəllərində Parisə gedib çıxa bildi. Mayın 28-də Azərbaycan nümayəndə heyətini ABŞ prezidenti V.Vilson qəbul etdi. Vilsona təqdim edilmiş memorandumda Azərbaycan respublikasının yaranma tarixi, onun bir ildə azadlıq yolunda verdiyi qurbanlardan bəhs olunurdu. Memorandumda göstərilirdi ki, bu mübarizədə Azərbaycanın iki şəhəri və 500 kəndi dağıdılmış, 150 min nəfərə qədər sakini qurban getmişdir. Təkcə İrəvan quberniyasında qısa bir müddət ərzində 200 müsəlman kəndi yandırılmış və 200 min nəfər müsəlman evsiz-eşiksiz qalmışdır. ABŞ prezidentindən Azərbaycan istiqlaliyyətinin tanınması, Vilson prinsiplərinin (1. Hər bir millət xarakterindəki intellektual və mənəvi-dini xüsusiyyətlərinə görə seçilməlidir; 2. Hər bir millət öz taleyini müəyyən etməyə qadir olduğunu göstərməlidir; 3. O, öz xərclərini ödəmək üçün iqtisadi, təbii və maliyyə vasitələrinə malik olmalıdır; 4. O, özünü xarici təcavüzdən qoruya bilməlidir; 5. O, tabe olduğu ölkənin hökumətinin zülmündən əziyyət çəkmiş olmalıdır) Azərbaycana aid edilməsi, Azərbaycanın Millətlər Cəmiyyətinə qəbul edilməsi, ABŞ-ın Azərbaycana hərbi sahədə yardım göstərməsi, ABŞ-la Azərbaycan arasında diplomatik və iqtisadi əlaqələrin bərqərar edilməsi məsələlərində Azərbaycan nümayəndə heyətinə kömək göstərilməsi xahiş olunurdu. Lakin ermənipərəst V.Vilson Azərbaycan nümayəndə heyətini soyuq qarşıladı, nümayəndə heyətinə konfederasiya ideyasını müdafiə etməyi, Millətlər Cəmiyyətinin mandatı ilə böyük dövlətlərdən birinin bu konfederasiya üzərində qəyyumluğunu qəbul etməyi məsləhət gördü. Konfederasiya məsələsinə Azərbaycan və qismən də gürcü nümayəndə heyəti müsbət yanaşırdı. Bu işin reallaşmasına əngəl olan isə erməni nümayəndə heyətinin pozuculuq fəaliyyəti idi. Ermənilər Paris sülh konfransı rəhbərliyindən tələb edirdilər ki, Birinci Dünya müharibəsinin Antantanın xeyrinə qələbə ilə başa çatmasında onların böyük xidmətlərini nəzərə alaraq, qalib dövlətlər «Böyük Ermənistan»ın yaradılmasında ermənilərə yardımçı olmalıdırlar. Guya Qafqazda rus ordusunun tərkibində 180 min, Avropada isə 15 min erməni könüllüsü müttəfiqlərin «müqəddəs işi» uğrunda mübarizə aparmışdır. Ermənilər Türkiyənin 7 şərq vilayəti, İrəvan quberniyası, Tiflis və Yelizavetpol (Gəncə) quberniyalarının cənubunu və Qars torpaqlarından ibarət böyük bir ərazini tələb edirdilər. Bundan əlavə, ermənilər 19 milyard frank həcmində müharibə təzminatı almaq istədiklərini də gizlətmirdilər. Yeri gəlmişkən, ermənilərin bu əsassız iddialarını Paris, London, xüsusilə də Vaşinqton qızğın müdafiə edirdi.

Erməni millətçilərinin «Dənizdən-dənizə Böyük Ermənistan» planına Qərbi Azərbaycan və Naxçıvan torpaqları da daxil idi. 1918-ci ilin yazında təkcə Sisiyan mahalında 50 min müsəlman ev-eşiyindən qovulmuş, 115 kənd dağıdılmış və yandırılmış, 10038 nəfər öldürülmüş və yaralanmışdı. Onlardan 7729 nəfəri (3257 kişi, 2276 qadın və 2196 uşaq) məhv edilmiş, 2309 nəfəri isə (1060 kişi, 764 qadın və 485 uşaq) şikəst edilmiş, qəzanın azərbaycanlı əhalisinə üst-üstə bir milyard manat maddi ziyan dəymişdi.

**Ardı var.**

***Uşaqlar bizim gələcəyimizdir. Gələcəyimizi nə cür tərbiyə edəcəyiksə, böyüdəcəyiksə, ölkəmizin, millətimizin, dövlətimizin gələcəyi bundan asılı olacaqdır.***

***Heydər Əliyev***
***Azərbaycan xalqının ümummilli lideri***

# İTİRİLMİŞ UŞAQLIQ

Xalqın, dövlətin ən qiymətli sərvəti uşaqlardır. Uşaqlar dövlətin gələcəyi, dövlətin möhkəmliyidir. Tarix boyu hər bir dövlət, hər bir cəmiyyət gələcəyi olan uşaqların qayğısına qalmağı, onların fiziki və mənəvi cəhətdən böyüməsini təmin etməyi özünün ən ümdə vəzifələrindən biri hesab etmişdir. Azərbaycan dövləti də bu mühüm məsələyə qayğı ilə yanaşır. Bu gün müstəqil Azərbaycanın uşaqları diqqət və qayğı ilə əhatə olunublar.

**zamanı 25 uşaq hər iki valideynini, 130-u isə bir valideynini itirmişdir. Ümumilikdə Qarabağ münaqişəsində 195 azərbaycanlı uşaq həyatdan məhrum edilib. 1988-1994-cü illərdə itkin düşmüş 4566 azərbaycanlıdan 53-ü uşaq olub. Verilən məlumata görə, əsir və girov götürülməsi məlum olan 877 nəfərdən 22 uşaq bu günədək Ermənistanda əsirlikdədir.**

Ötən il iyulun 4-də törədilən dəhşətli faciə - 2 yaşlı Zəhranın erməni silahlıları tərəfindən amansızcasına öldürülməsi ictimaiyyət tərəfindən hiddətlə qarşılandı. Həm də atəşkəs dövründə düşmənin dinc əhaliyə, o cümlədən uşaqlara, qadınlara və qocalara qarşı törətdikləri yeganə vəhşilik deyil.

Dünyada müharibələrdən zərər görən uşaqlar arasında Azərbaycan uşaqları daha çoxdur. Şəhidlər Xiyabanında naməlum körpə qəbirləri görənləri dəhşətə gətirir. 1988-1994-cü illərdə erməni terror qrupları və silahlı birləşmələri minlərlə azərbaycanlı körpənin vəhşicəsinə qətlə yetirilməsinə, yaralanmasına, itkin və əsir düşməsinə, eləcə də bir və ya hər iki valideynini itirməsinə səbəb olmuşdur.

1988-1989-cu illərdə Qərbi Azərbaycanda yaşayan 250 mindən çox azərbaycanlının qovulması, **etnik təmizləmə nəticəsində qətlə yetirilən 216 azərbaycanlının 23-ü uşaq olmuşdur. Xocalı soyqırımı nəticəsində öldürülənlərdən 63-ü uşaqdır. Bu qətliam**

***İndi onlar Azərbaycanın hər yerindədirlər. Böyüyürlər, oxuyurlar, evlənib özləri ailə-uşaq sahibi olurlar. Nəyi qazanıb, nəyi itirdiklərini bir özləri bilir, bir də Yaradanımız. Amma hamımızın, hamının bildiyi bir həqiqət var. Bunun adına «İtirilmiş uşaqlıq» deyirlər.***

Uşaqlar, uşaqlar gününüz mübarək!

***Ruhiyyə Əliyeva,***
***polis leytenantı***

**Dövlətçilik tariximizin parlaq səhifələrindən olan Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasının 100 illiyi münasibətilə mayın 26-da DİN-in Əlahiddə Çevik Polis Alayında da tədbir keçirilib.**

# DÖVLƏTÇİLİYİMİZİN ŞƏRƏFLİ SALNAMƏSİ

Tədbirin əvvəlində çıxış edən alay komandiri, polis general-mayoru Zaur Abdullayev xalqımızın azadlıq uğrunda apardığı mübarizənin, milli özünüdərkin və oyanışın nəticəsi olaraq, müstəqil dövlətimizin yarandığını, o vaxt yüz ildən artıq çar Rusiyasının əsarəti altında itirilməkdə olan dövlətçilik ənənələrini bərpa etdiyini, müsəlman Şərqində ilk cümhuriyyəti yaratdığını qeyd edib. Xalq Cümhuriyyətinin cəmi 23 ay yaşasa da, qısa müddət ərzində həyata keçirdiyi tədbirlər, dəyərli işlərlə tariximizdə böyük iz buraxdığını deyən alay komandiri cümhuriyyətin yaranmasını xalqımızın milli mənlik şüurunun güclənməsinə böyük təsir göstərdiyini, 70 illik fasilədən sonra Azərbaycanın özünün dövlət müstəqilliyini bərpa etdiyini, bu tarixi varislik üzərində yeni Azərbaycan dövləti yaradıldığını diqqətə çatdırıb. O, ikinci dəfə qazandığımız müstəqilliyin ilk illərində idarəçilikdə buraxılan kobud səhvlər nəticəsində dövlətimizin 1920-ci ildəki aqibəti təkrarlanmaq təhlükəsi ilə üzləşdiyini, bu fəlakətin 1993-cü ilin iyununda, ulu öndər Heydər Əliyevin siyasi hakimiyyətə gəlişi ilə aradan qaldırıldığını, ulu öndərimizin xilaskarlıq missiyasını müdrikliklə, yenilməz iradə, qətiyyət və böyük uzaqgörənliklə yerinə yetirdiyini, onun rəhbərliyi ilə qısa müddətdə dövlətçiliyin təməl prinsiplərinin yaradılaraq möhkəmləndirildiyini bildirib.



1918-1920-ci illərdə respublikada demokratik hüquq və azadlıqların bərqərar olması, etnik və dini mənsubiyyətindən asılı olmayaraq, bütün vətəndaşlara bərabər hüquqların verilməsi, Şərqdə ilk dəfə olaraq qadınların seçki hüququnun tanınması, milli pulun dövriyyəyə buraxılması, ordunun, parlamentin, təhlükəsizlik strukturlarının formalaşdırılması, mətbuatın inkişafı Azərbaycan Xalq Cümhuriyyətinin parlaq uğurları kimi xatırlanır. Milliyətindən, siyasi və dini mənsubiyyətindən, cinsindən asılı olmayaraq, bütün vətəndaşlara bərabər hüquqlar verilməsi, dövlət sərhədlərinin tanınması, dövlətçilik atributlarının qəbul edilməsi, ana dilinin dövlət dili elan olunması, hakimiyyət strukturunun və onun fəaliyyət mexanizminin formalaşması müstəqil dövlətin böyük uğurları idi.



Daha sonra çıxış edən Milli Elmlər Akademiyası A.Bakıxanov adına Tarix İnstitutunun əməkdaşı, tarix üzrə fəlsəfə doktoru, dosent Dilavər Əzimli qeyd edib ki, ötən əsrin əvvəllərində cərəyan edən qlobal proseslərin obyektiv nəticəsi kimi 1918-ci il 28 mayında istiqlaliyyətini bütün dünyaya bəyan etmiş Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100-cü ildönümü ölkəmizdə və xaricdə son dərəcə mühüm və əlamətdar hadisə kimi qeyd edilir. Müsəlman Şərqində ilk demokratik və hüquqi dövlət quruluşunu yaratmış cümhuriyyət cəmi 23 aylıq mövcudluğu dövründə xalqın milli mənlik şüurunu özünə qaytarmış, onun öz müqəddəratını təyin etməyə qadir olduğunu, müstəqillik əzmini əyani şəkildə nümayiş etdirmişdir.

D.Əzimli bildirib ki, tarixin bizə verdiyi şansdan yararlanaraq ikinci dəfə əldə etdiyimiz müstəqilliyimizin ilk illərində də ciddi sınaqlarla üz-üzə qalan dövlətçiliyimiz yalnız xalqın təkidli tələbi ilə ali hakimiyyətə qayıdan ulu öndərimizin titanik fəaliyyəti nəticəsində xilas oldu. Bu gün Azərbaycanda dövlət adından qəbul edilən bütün qərarlar yalnız və yalnız Azərbaycanın öz müstəqil qərarlarıdır.

Müstəqil daxili və xarici siyasət yeridən Azərbaycan artıq regionda deyil, beynəlxalq miqyasda söz sahibi olan ölkə və strateji tərəfdaş kimi tanınır. Prezident İlham Əliyevin dövlətimizin milli maraqlarını bütün sahələrdə inamla təmin etməsi Azərbaycanın müstəqilliyinin daha da möhkəmlənməsinə, əbədi və sarsılmaz dövlətçiliyimizin daha da qüdrətlənməsinə xidmət edir.

***Natiq Cavadov,***
***polis kapitanı***

# BİZƏ YAZIRLAR...

**Polis-vətəndaş münasibətlərinin daha da möhkəmləndirilməsi, müraciətlərə həssaslıqla yanaşılması da daxili işlər orqanları əməkdaşlarının xidməti fəaliyyətinin əsas istiqamətlərindəndir.**



Daxili işlər orqanlarının fəaliyyəti ilə bağlı hər gün vətəndaşlardan aldığımız coxlu sayda minnətdarlıq məktubları göstərir ki, bu sahədə də kifayət qədər uğurlarımız var.

***Bakı şəhər sakini Nizami Cəfərov*** polis-vətəndaş həmrəyliyinin yüksək səviyyədə təşkilinə görə təşəkkürünü bildirir. O, məktubunda yazır: "Bir çox Dövlət Yol Polisi əməkdaşlarının sürücülərlə xoş rəftarı bizdə məmnunluq yaradır. Vətəndaşları səbrlə, təmkinlə dinləyirlər. Hər zaman onların operativ və obyektiv münasibətinin şahidi oluruq".

***Paytaxt sakini Hafiz Tağıyev*** və **Şəmkir rayon sakini Məhəmmədəli Əsgərov** DİN-ə ünvanladıqları məktublarında onlara dəyən ziyanın ödənilməsində göstərilən köməyə görə daxili işlər orqanları əməkdaşlarına təşəkkürlərini bildirirlər.

***Ağsu rayon sakinləri Həzi Abışov və Hasil Mirzəyev*** evlərində baş vermiş oğurluq hadisəsinin tez bir zamanda açılmasında göstərdikləri köməyə görə polisə minnətdarlıqlarını bildirirlər.

Əlbətdə ki, polisimiz öz xidməti vəzifəsini yerinə yetirir. O, öz fəaliyyəti və davranışı ilə nümunə göstərir. Vətəndaşların polisin fəaliyyətinə verdiyi dəyər isə hər birimiz üçün önəmlidir.

***Aytəkin Nəcəfova,***
***polis polkovnik-leytenantı***

# RESPUBLİKA BAŞ PROKURORLUĞU VƏ DAXİLİ İŞLƏR NAZİRLİYİ MƏTBUAT XİDMƏTLƏRİNİN MƏLUMATI

Prokurorluq və daxili işlər orqanları tərəfindən ölkənin iqtisadi maraqlarına qarşı yönəlməklə sahibkarlıq fəaliyyətinin qanunla müəyyən edilmiş qaydalarına qəsd edən cinayətlərin aşkarlanaraq qarşısının alınması istiqamətində həyata keçirilən istintaq-əməliyyat tədbirləri nəticəsində Ədliyyə Nazirliyində qeydiyyatdan keçməyən Azərbaycan Xalq Cəbhəsi Partiyası (AXCP) adlı qurumun funksionerlərindən Əli Kərimli, Qənimət Zahidov, Saleh Rüstəmov, Vidadi Rüstəmli, Aqil Məhərrəmov, Ruslan Nəsirov, Babək Həsənov və digərlərinin Bakı şəhər sakinləri Ceyhun Hüseynov, Rauf İsgəndərov, Heydər Əhmədov, Tural Mehdixanov və qeyrilərinin üzv olduqları qurumun respublikamızda və xaricdə dövlətimizə, dövlətçiliyimizə və milli maraqlarımıza zidd olaraq keçirilən tədbirlərinin maliyyələşdirilməsi üçün qanunsuz sahibkarlıq fəaliyyəti nəticəsində əldə edilmiş külli miqdarda çirkli pul vəsaitlərinin leqallaşdırılması əməllərini törətmələrinə dair kifayət qədər sübutlar toplanmışdır.

Belə ki, Rusiya Federasiyasında yaşayan Saleh Rüstəmov pul vəsaitlərinin əldə edilməsinin mənbəyini gizlətmək məqsədilə "Sahibkarlıq fəaliyyəti haqqında" qanunun, Vergi Məcəlləsi və digər normativ-hüquqi aktların tələblərini pozaraq qanunvericiliklə müəyyən edilmiş qaydada dövlət qeydiyyatına alınmadan, vergi ödəyicisi kimi uçotda durmadan, həmçinin xüsusi razılıq (lisenziya) olmadan banklar və digər kredit təşkilatlarının müstəsna funksiyalarına aid faktiki bank fəaliyyətini həyata keçirmək məqsədi ilə AXCP-nin fəaliyyətinin maliyyələşdirilməsi üçün Rusiya Federasiyasının ərazisində təbliğat aparmışdır.

Saleh Rüstəmov daha sonra biznes strukturlarında çalışan və əvvəllər tanıdığı Azərbaycan Respublikasının ayrı-ayrı vətəndaşlarından hər ay toplayaraq Moskva şəhərində kommersiya bankında açdığı hesabına keçirdiyi 30 min ABŞ dollarını 2016-cı ilin mart ayından etibarən, Bakı şəhərində valyuta əməliyyatlarının qanunsuz köçürülməsi ilə məşğul olan Ceyhun Hüseynov, Rauf İsgəndərov, Heydər Əhmədov və Tural Mehdixanov vasitəsilə Vidadi Rüstəmliyə çatdırılmasını təmin etmişdir. V.Rüstəmlinin həmin vəsaitləri qəbul edib Aqil Məhərrəmov, Ruslan Nəsirov və Babək Həsənova, onların isə AXCP-nin funksionerlərinə verməələri ilə, ümumilikdə 412 min ABŞ dollarını AXCP-nin tədbirlərinin maliyyələşdirilməsinə, dəstə üzvlərinin iqtisadi maraqlarının təmin olunmasına və digər maliyyə əməliyyatlarının həyata keçirilməsinə, beləliklə də cinayət yolu ilə əldə edilmiş külli miqdarda pul vəsaitlərinin leqallışdırılması əməllərini törətmələrinə əsaslı şübhələr müəyyən olunmuşdur.

Həmin xüsusatlar Saleh Rüstəmov, Vidadi Rüstəmli, Ceyhun Hüseynov və başqalarının ifadələri, digər istintaq hərəkətləri və əməliyyat-axtarış tədbirləri ilə təsdiq olunmuş, müvafiq ekspertizanın rəyi ilə qeyd olunan şəxslərin mobil cihazlarında pul vəsaitlərinin qeyri-qanuni dövriyyəsinə dair texniki sübutlar əldə edilmişdir.

İş üzrə dindirilmiş Babək Həsənov, Ruslan Nəsirov, Aqil Məhərrəmov qeyd olunan qanunsuz əməlləri etiraf edərək, təmsil etdikləri qurumun fəaliyyət və tədbirlərinin maliyyələşdirilməsi üçün Saleh Rüstəmovun Moskva şəhərindən göndərdiyi pul vəsaitlərini Vidadi Rüstəmlidən qəbul edib Əli Kərimli və digər şəxslərə verdiklərini bildirmişlər. Onların yaşadıqları ünvanlarda aparılmış axtarışlar zamanı qanunsuz pul dövriyyəsini, çirkli pulların leqallaşdırılmasını təsdiqləyən bank kartları və başqa sənədlər aşkar edilərək maddi sübut kimi götürülmüşdür.

Saleh Rüstəmov, Vidadi Rüstəmli, Aqil Məhərrəmov, Ruslan Nəsirov, Babək Həsənov, Eltac Əlisoy Cinayət Məcəlləsinin 192.3.2 (xüsusilə külli miqdarda gəlir əldə etməklə qanunsuz sahibkarlıq), 193-1.3.1 və 193-1.3.2-ci (mütəşəkkil dəstə tərəfindən cinayət yolu ilə əldə edilmiş külli miqdarda pul vəsaitlərini və ya digər əmlakı leqallaşdırma) və sair maddələri ilə təqsirləndirilən şəxs qismində cəlb olunaraq barələrində məhkəmənin qərarları ilə həbs qətimkan tədbiri seçilmişdir. İstintaqdan gizləndiyi üçün Eltac Əlisoy barəsində axtarış elan olunmuşdur.

Təqsirləndirilən şəxslərin cinayət-prosessual qanunvericilikdə nəzərdə tutulan müdafiə, hüquqi yardım almaq və sair hüquqları tam təmin olunmuşdur.

Bəzi kütləvi informasiya vasitələrində və sosial şəbəkələrdə yayımlanan məlumatlar isə istintaqa təsir göstərmək, cinayət işini süni surətdə siyasiləşdirərək cəmiyyətdə qəsdən yanlış fikir formalaşdırmaq və ictimai rəyi çaşdırmaq məqsədi güdür.

Hazırda Baş Prokurorluğun və Daxili İşlər Nazirliyinin aidiyyatı qurumları tərəfindən cinayət işi üzrə hərtərəfli və obyektiv istintaq aparılmaqla təqsirkar şəxslərin dairəsinin tam müəyyənləşdirilərək məsuliyyətə cəlb olunmaları istiqamətində qanunvericilikdə nəzərdə tutulan zəruri istintaq-əməliyyat tədbirləri davam etdirilir.

***26 may 2018-ci il***

# FİLM KİMİ OĞURLUQ...

**Kürdəmir Rayon Polis Şöbəsinin Növbətçi hissəsində özümü təqdim etdim. Növbətçi zabit rəis, polis polkovniki Sultan Zeynalovun məşğul olduğunu bildirdi:**

***-Bir az gözləməli olacaqsız, qəbulda vətəndaşlar var,*** -dedi.

**Yuxarı qalxıb qəbul otağına keçdim. Təzəcə oturmuşdum ki, rəisin kabinetindən iki nəfər çıxdı və növbədə olan daha ikisi içəri keçdi.**



**Onlar da çıxandan sonra növbə mənə çatdı...**

***-Əgər yanılmıramsa, qəbul gününüz deyil?***

***-Düz diqqət etmisiz. Amma neyləyək, vətəndaşı narazı salmaq olmaz. Zəhmət çəkib gəliblər, qəbul etməliyik,*** -dedi.

Gəlişimin məqsədini öyrənəndə hörmətlə razılığını bildirdi və beləliklə, polis polkovniki S.Zeynalov dedi ki, cari ilin geridə qoyduğumuz müddəti ərzində RPŞ üzrə ümumilikdə 68 cinayət qeydə alınıb, açılması 94.5 faiz təmin olunub. Ötən ilin eyni dövrü ilə müqayisədə cinayətlərin açılması 11.7 faiz yaxşılaşıb. Qeyri-aşkar şəraitdə törədilmiş cinayətlərin açılması 92 faiz olub. Ağır və xüsusilə ağır, eləcə də böyük ictimai təhlükə törətməyən cinayətlərin açılması 100 faiz təmin olunub. İtkin düşmüş 2 nəfərin yeri müəyyən edilib, 10 nəfər təqsirləndirilən şəxs yaxalanaraq istintaqa təhvil verilib. Narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə nəticəsində 10 fakt aşkarlanıb. Qanunsuz saxlanılan 7 ədəd odlu silah götürülüb.

Söhbətimizin əvvəlinə qayıdan RPŞ-nin rəisi dedi ki, vətəndaşların qəbulu həmişə diqqət mərkəzindədir. Nizam-intizam, xidməti və fiziki hazırlıq dərslərinə də rəhbərlik tərəfindən xüsusi diqqət yetirilir.

Görülmüş işlərdən biri barədə ətraflı olaraq oxucularımızı da məlumatlandırmaq istəyimi bildirəndə: **"Bu məsələdə sizə əməliyyat işləri üzrə rəis müavini, polis polkovnik-leytenantı Səfər Nuriyev yardım edər",**-dedi.

Belə də oldu...

Bərdə rayon sakinləri - Əvəz Qurbanov və Fariz İbrahimov kürdəmirli Zəka Ramazanovla Bərdədəki mal bazarında rastlaşdılar.

***-Xoş gördük, çoxdandır görsənmirsən.***

***-Neyləyim, kasıbçılığın üzü qara olsun.***

***-Sən ki, işsiz qalmazdın.***

***-Doğrusu, yaxşı bir fikrim var, amma ürəkli oğul axtarıram.***

***-Ürəkli oğul biz...***

Zəka çoxdan bəri göz qoyduğu həmkəndlisinin iri qoyunçuluq təsərrüfatı barədə tanışlarına yerli-yataqlı məlumat verdi. Danışmaq bir yana, hər şeyi əyani görüb, əməlli-başlı plan qurmaq lazım idi.

Kürdəmirin Karrar kəndinə gəldilər. Zəkanın nişan verdiyi həyətin giriş-çıxışını diqqətlə, ehtiyatla öyrəndilər. Sonra yenidən Bərdəyə qayıtdılar. Planlarını həyata keçirmək üçün onlara böyük bir yük maşını lazım idi. Bazarda xeyli var-gəldən sonra bir maşına yaxınlaşdılar.

**Ardı 4-cü səhifədə.**

# SABAHIN ƏSGƏRLƏRİNİ QORUYAQ!

**Sabunçudakı 311 nömrəli məktəbdə keçirilən tədbirdə “Bu gün Azərbaycan Polisi sabahın əsgərləri olan gənclərimizi qoruyur” adlı tədbir keçirilib. Yığıncağı açıq elan edən məktəbin direktoru Esmira Muradova ümumbəşəri problem olan narkomaniyaya qarşı bütün dünya ölkələrinin ciddi addımlar atdığını, həmçinin ölkəmizdə də davamlı işlərin həyata keçirildiyini bildirdi.**

“Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 24 iyun tarixli Sərəncamı ilə təsdiq olunmuş “Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2013-2018-ci illər üçün Dövlət Proqramı”nın icrası uğurla davam etdirilir. Daxili İşlər Nazirliyinin bu istiqamətdə keçirdiyi maarifləndirmə tədbirləri çox təqdirəlayiqdir”.

Bu fikirləri Rayon İcra Hakimiyyətinin nümayəndəsi Ədalət Teymurov səsləndirdi.

RPİ-nin Yetkinlik yaşına çatmayanlarla profilaktiki işin təşkili bölməsinin rəisi, polis mayoru Əli Babayev həyata keçirilən maarifləndirmə ilə yanaşı, həm də polisin və digər hüquq-mühafizə orqanlarının birgə fəaliyyəti nəticəsində narkotiklərlə mübarizədə uğurlu tədbirlərini, narkomaniya ilə bağlı məlumatları asanlıqla aidiyyəti qurumlara çatdırılmasında mühüm rol oynayan "Qaynar xətti"n yaradıldığını da diqqətə çatdırdı.





“Narkotika insanlarda mərkəzi sinir sisteminin təsir gücünü artıran bir dərmandır. Onu qəbul edənlər ən çoxu bir saat, yaxud saat yarım özlərini normal hiss edə bilirlər. Çox keçmir ki, öləziyən bədənin çəkisi sanki get-gedə “azalır”, fiziki qüvvə tükənir, ayaqlar hərəkət gücünü itirir, huş qeybə çəkilir, beyin öz fəaliyyəti ilə vidalaşır və həmin şəxs normal insan düşüncəsindən məhrum olur. Narkotik maddə qəbul edənlər həm də özləri də bilmədən yoluxucu xəstəliklərin daşıyıcısına çevrilirlər”,- deyən həkim-narkoloq Pərvin Abbaslı gəncləri bu bəladan uzaq durmağa çağırdı.

“Günü-gündən qarışan dünyamızda ölkəmizdəki sabitliyi gözügötürməyənlər narkomaniya adlı bəlaya gənclərimizi düçar etməklə kriminogün durumu dəyişməyə, cinayətkar əməllərin çoxalmasına çalışırlar. Lakin onlar heç də həmişə istəklərinə çata bilmirlər, çünki qarşılarında torpağını, millətini, gəncliyini və gələcəyini sevən Azərbaycan Polisini görürlər. Azərbaycana sağlam gənclər lazımdır. Çünki onların hər biri Vətənin əsgəridir. Gənclərimizin idmanda və bilik yarışlarında qazandıqları nailiyyətlər bizi sevindirsə də, bəzi gənclərimizin narkotikə qurşanmasının ağrılı hal olduğunu, - deyən İdarə rəisi, polis polkovniki Eldar İlyasov təəssüf hissi ilə bildirdi ki, bu gün cinayətlərin əksəriyyəti narkomanlar tərəfindən törədilir.

Sonda şagirdlərin sualları cavablandırıldı.

*Hafiz Təmirov,*
*polis mayoru*

# AZƏRBAYCAN RESPUBLİKASININ DAXİLİ İŞLƏR NAZİRLİYİ BEYNƏLXALQ ƏMƏKDAŞLIQ İDARƏSİNDƏ VAKANT OLAN 2 (İKİ) İNSPEKTOR VƏ 1 (BİR) İNSPEKTOR-TƏRCÜMƏÇİ VƏZİFƏLƏRİNİN KOMPLEKTLƏŞDİRİLMƏSİ İLƏ ƏLAQƏDAR MÜSABİQƏ ELAN EDİR

– **İnspektor** (bu vəzifələrə namizəd dövlət ali təhsil müəssisələrini beynəlxalq hüquq və beynəlxalq münasibətlər ixtisası üzrə bitirmiş, ixtisası üzrə əmək stajına malik olmalıdır);

– **İnspektor-tərcüməçi** (bu vəzifəyə namizəd dövlət ali təhsil müəssisələrini tərcüməçi (sinxron-ingilis dili) ixtisası üzrə bitirmiş, ingilis dilini mükəmməl bilən, tərcüməçi kimi əmək stajına malik olmalıdır);

Müsabiqədə «Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmət keçmə haqqında Əsasnamə» ilə müəyyən olunmuş şərtlərə cavab verən, yaşı 30-dan yuxarı olmayan, həqiqi hərbi xidmət müddətini tam başa vurmuş, özü və yaxın qohumları məhkum olunmamış Bakı, Sumqayıt şəhərləri və Abşeron rayonunda yaşayış yeri üzrə qeydiyyatda olan Azərbaycan Respublikasının kişi vətəndaşları iştirak edə bilərlər.

Müsabiqədə iştirak etmək istəyən şəxslər 2018-ci ilin may ayının 23-dən iyun ayının 23-dək http://www.mia.gov.az/index.php?/az/content/29875/ ünvanında yerləşdirilmiş elektron ərizə formasını şəxsən dolduraraq elektron poçt vasitəsi ilə bki@mia.gov.az ünvanına Daxili İşlər Nazirliyinin Baş Kadrlar İdarəsinə göndərməlidirlər.

Elektron ərizənin qeydiyyata alınması barədə müvafiq məlumat aldıqdan sonra müsabiqədə iştirak üçün dəvət edilən namizədlər aşağıdakı sənədləri şəxsən təqdim etməlidirlər:

- ***şəxsiyyət vəsiqəsi;***
- ***ali təhsil haqqında diplom;***
- ***hərbi bilet;***
- ***əmək kitabçası (olanlar üçün).***

Müsabiqə qalibləri müvafiq xüsusi rütbə verilməklə Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin kadrları tərkibinə daxil ediləcək və onların qanunvericilikdə müəyyən olunmuş qaydada daxili işlər orqanları əməkdaşlarına şamil olunan imtiyazlardan istifadə hüququ olacaqdır.

**Əlavə məlumat almaq üçün əlaqə telefonları: (012)-590-97-52; (012)-590-93-27.**

*DİN-in Baş Kadrlar İdarəsi və Beynəlxalq Əməkdaşlıq İdarəsi*

**2018-ci ilin II yarısı üçün “Mübariz keşikdə”yə öz qəzetinizə abunə olmağa tələsin!**

# FİLM KİMİ OĞURLUQ...

*Əvvəli 3-cü səhifədə.*

***-Qardaş, Kürdəmirdə heyvanımız var, gətirməzsən?***

***-Niyə gətirmirəm, puluna minnət.***

***-Amma gərək bu gecə çıxaq ki, səhərə bazarda olaq...***

Qiymətdə razılaşıb yola çıxdılar. Kəndə yetişəndə saat 3-4 radələri olardı.

Qabaqcadan planlaşdırdıqları kimi, qoyunları sakitcə tövlədən çıxarıb kəndin kənarında bir yerə topladılar, sonra da elə maşının işığındaca yük yerinə doldurdular. Hər şeyi elə məharətlə və arxayınlıqla edirdilər ki, qoyunların oğurluq olduğu sürücünün ağlına belə gəlmədi. Kənddən təzəcə çıxmışdılar ki, Bərdədə malın ucuz olmasını bəhanə gətirərək Bakıya sürməsini ondan xahiş etdilər. Sonuncu əvvəlcə razılaşmadı:

***-Ay qardaş, bu olmadı ki... Axı, rayonda məni başqa müştəri gözləyir.***

***-Sən narahat olma, onun da xərcini biz çəkərik...***

Şəhərə çatıb qoyunları bir neçə qəssab arasında bölüşdürdülər...

Karrar kənd sakini Müşviq Bəndəliyev, adəti üzrə, tezdən oyanıb mal-heyvana baş çəkmək üçün tövləyə yollandı. Qapını açanda gördüyünə inanmadı. Bir-iki çəlimsiz keçidən başqa heç nə yox idi. “Nəyim vardı aparıblar”,- deyə fəryad qopardı.



Axı, üst-üstə 230 baş qoyunu bir gecədə oğurlamaq necə mümkün ola bilərdi. Birtəhər özünə gəlib polisə xəbər verdi.

Kürdəmir RPŞ-yə məlumat daxil olan kimi yaradılmış əməliyyat-istintaq qrupu hadisə yerinə yollandı. Faktın özü ilk baxışdan polisləri də təəccübləndirdi. Ev sahibi bir yana, heç qohum-qonşunun da bu qədər qoyunun bir gecədə oğurlanmasından xəbər tutmamaları maraq doğururdu.

Əldə olunmuş məlumatlara əsasən, yük maşınının markasını müəyyən etmək mümkün oldu. Təcrübəli polis əməkdaşları elə bu ipucu da bəs etdi. Həmin maşının əvvəlcə Bakıya getməsi, daha sonra Bərdəyə geri dönməsi müəyyənləşdirildi. RPŞ-yə dəvət olunan sürücü istintaqa verdiyi ifadədə bildiklərini yerliyataqlı danışdı və qoyunların oğurlanmasından xəbərsiz olduğuna polisləri inandıra bildi..

DİN Baş Cinayət-Axtarışı İdarəsi, Növbətçi hissələri İdarəetmə xidməti və Kürdəmir RPŞ əməkdaşlarının birgə keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində tezliklə hadisəni törətməkdə şübhəli bilinən əvvəllər məhkum olunmuş Fariz İbrahimov Quba rayonunda həbs olundu.

Ardınca hadisənin digər iştirakçıları da yaxalanaraq istintaqa təhvil verildilər.

*Çingiz Şıxverdiyev,*
*polis polkovnik-leytenantı*

# DÜNYAYA PƏNCƏRƏ

Avstraliyanın Yeni Cənubi Uels əyalətinin Dubbo ərazisində rəqəmsal sürücülük vəsiqəsinin istifadəsinə start verilib. Hazırda bu xidmətdən 1400 nəfər istifadə edir və gələcəkdə, bütün əyalət və ölkədə tətbiqi planlaşdırılır. Bunun üçün parlamentdə müvafiq qanun qəbul ediləcək. Sürücülər smartfonlara tətbiqetmə yükləyərək sürücülük vəsiqəsindən istifadə edəcəklər. Rəqəmsal sənədin polis nəzarəti, gecə klublarına giriş zamanı da istifadəsi mümkün olacaq. Sürücülərə həmçinin sürücülük kartı veriləcək, lakin bu sənədi yanlarında gəzdirmək məcburiyyəti qoyulmur.

Qeyd edək ki, sistem oğurluq, sənəd saxtalaşdırma halları zamanı yaranan problemlərin qarşısını almağı da hədəfləyir.

*****

***Gürcüstan vətəndaşları mobil telefonlarının simkartlarına şəxsi identifikasiya məlumatlarını yükləyərək bundan istifadə etmək imkanı qazanacaqlar. Dövlət Xidmətlərinin İnkişafı Agentliyi proqram təminatı sistemi və ona texniki dəstək xidmətlərinin satın almaq üçün elektron tender elan edib. Layihənin dəyəri 5,8 milyon laridir.***

***Layihə həyata keçirildikdən sonra simkart ID kartların funksiyalarına malik olacaq və oraya vətəndaşın bütün identifikasiya məlumatları yüklənəcək. Vətəndaş öz istəyi ilə elektron imza funksiyasını da aktivləşdirə bilər. Bundan sonra vətəndaşların şəxsiyyət vəsiqəsi gəzdirməsinə ehtiyac qalmayacaq.***

*****

Yunanıstan polisi mütəşəkkil cinayətkar qrupun üzvü olan 21 nəfəri həbs edib. Müxtəlif cinayətlər törətməkdə ittiham olunan şəxslərdən 18-i Gürcüstan vətəndaşıdır, qalan üçü isə Yunanıstan, İraq və Bolqarıstandandır.

Afina polisinin rəsmi nümayəndəsi saxlanılan qrupun ən iri cinayətkar şəbəkə olduğunu qeyd edib. Onun sözlərinə görə, zərərsizləşdirilmiş şəbəkənin özəlliyi ondadır ki, o, bir-birindən asılı olmayan, lazım gəldikdə isə əlbir olan dörd qrupdan ibarət olub.

Yunanıstanda keçirilən əməliyyat ölkənin bütün ərazisini əhatə edib. Saxlanılanlar 24-64 yaş arasındadırlar və onlar 70 mənzil oğurluğu, silahlı soyğunçuluq, narkotik maddələrin satışı və digər cinayətlər törətməkdə ittiham olunurlar.

*****

***Hindistanda hava limanında mədəsində qara bazarda dəyəri təxminən 735 min ABŞ dolları olan 106 kokain kapsulu gəzdirən qadın həbs olunub. Polis kimliyi açıqlanmayan 25 yaşındakı qadının mədəsindəki kapsulların xəstəxanada çıxarıldığını açıqlayıb. Nəzarətə alınan şübhəlinin bu kapsulları Braziliyanın Sao Paulo şəhərində udduğu və Hindistanda bir Nigeriya vətəndaşına təslim etmək istədiyi bildirilir.***

*Natiq Cavadov*

## Mayın 23-dən 29-dək olan müddət ərzində...

- Respublikanın daxili işlər orqanları tərəfindən 721 cinayət qeydə alınmış, onların 163-ü «isti izlər»lə açılmışdır.
- Əvvəlki dövrlərdən bağlı qalmış 33 cinayətin açılması təmin olunmuşdur.
- Axtarışda olduğuna görə ümumilikdə 149 nəfər, o cümlədən mülki-hüquqi öhdəliklərin icrasından yayındığına görə 5 nəfər, borclu şəxs qismində axtarışda olan 74 nəfər saxlanılaraq aidiyyatı üzrə təhvil verilmişdir.
- Avtomobil yollarında 26 yol-nəqliyyat hadisəsi baş vermişdir ki, nəticədə 9 nəfər ölmüş, 45 nəfər xəsarət almışdır.
- Daxili işlər orqanları əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində narkotiklərlə əlaqəli 78 fakt müəyyən edilmişdir.
- Cinayət törətməkdə şübhəli bilinən 191 nəfər saxlanılmışdır.

Baş Əməliyyat və Statistik İnformasiya İdarəsinin rəisi Elşən Kazımov və şəxsi heyəti Kəlbəcər RPŞ-nin rəisi Haxverdi Əkbərova atası

**KOROĞLU ƏKBƏROVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

DİN Şəxsi Heyətlə İş İdarəsinin rəisi Rahib Qarayev və şəxsi heyəti Gəncə ŞBPİ-nin əməkdaşı Təranə Şahmuradovaya atası

**ƏMİRXAN kişinin**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Lənkəran ŞRPŞ-nin rəisi İslam Hümbətov və şəxsi heyəti Haxverdi Əkbərova atası

**KOROĞLU ƏKBƏROVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Xaçmaz RPŞ-nin rəisi Nofəl Məhərrəmov və şəxsi heyəti Haxverdi Əkbərova atası

**KOROĞLU ƏKBƏROVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Şirvan ŞPŞ-nin rəisi Hikmət Quliyev və şəxsi heyəti Haxverdi Əkbərova atası

**KOROĞLU ƏKBƏROVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Yevlax RPŞ-nin rəisi Vaqif Müslümov və şəxsi heyəti Haxverdi Əkbərova atası

**KOROĞLU ƏKBƏROVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Goranboy RPŞ-nin rəisi Fəqan Azadəliyev və şəxsi heyəti Haxverdi Əkbərova atası

**KOROĞLU ƏKBƏROVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Mingəçevir ŞPŞ-nin rəisi Cavid Muradov və şəxsi heyəti Haxverdi Əkbərova atası

**KOROĞLU ƏKBƏROVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Zaqatala RPŞ-nin rəisi Adil Ələkbərov və şəxsi heyəti Haxverdi Əkbərova atası

**KOROĞLU ƏKBƏROVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Göyçay RPŞ-nin rəisi Sənan Əsədov və şəxsi heyəti Haxverdi Əkbərova atası

**KOROĞLU ƏKBƏROVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Bərdə RPŞ-nin rəisi İlqar Məmmədov və şəxsi heyəti Haxverdi Əkbərova atası

**KOROĞLU ƏKBƏROVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Cəlilabad RPŞ-nin rəisi Mübariz Quliyev və şəxsi heyəti Haxverdi Əkbərova atası

**KOROĞLU ƏKBƏROVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Qəbələ RPŞ-nin rəisi Nadir Məmmədov və şəxsi heyəti Haxverdi Əkbərova atası

**KOROĞLU ƏKBƏROVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Yardımlı RPŞ-nin rəisi Arif Babayev və şəxsi heyəti Haxverdi Əkbərova atası

**KOROĞLU ƏKBƏROVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Masallı RPŞ-nin rəisi Habil Əmiraslanov və şəxsi heyəti Haxverdi Əkbərova atası

**KOROĞLU ƏKBƏROVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Biləsuvar RPŞ-nin rəisi Əlyəddin Səfərov və şəxsi heyəti Haxverdi Əkbərova atası

**KOROĞLU ƏKBƏROVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Balakən RPŞ-nin rəisi Elnur Həsənov və şəxsi heyəti Haxverdi Əkbərova atası

**KOROĞLU ƏKBƏROVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Tərtər RPŞ-nin rəisi Rauf Məcidov və şəxsi heyəti Haxverdi Əkbərova atası

**KOROĞLU ƏKBƏROVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Neftçala RPŞ-nin rəisi Vüsal Şəbəndiyev və şəxsi heyəti Haxverdi Əkbərova atası

**KOROĞLU ƏKBƏROVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Ucar RPŞ-nin rəisi Eldar Paşayev və şəxsi heyəti Haxverdi Əkbərova atası

**KOROĞLU ƏKBƏROVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Ağcabədi RPŞ-nin rəisi Məhəmməd İbrahimov və şəxsi heyəti Haxverdi Əkbərova atası

**KOROĞLU ƏKBƏROVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Hacıqabul RPŞ-nin rəisi Məmməd Hüseynov və şəxsi heyəti Haxverdi Əkbərova atası

**KOROĞLU ƏKBƏROVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Şəki ŞRPŞ-nin rəisi Əbülfət Rzayev və şəxsi heyəti Haxverdi Əkbərova atası

**KOROĞLU ƏKBƏROVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Şuşa RPŞ-nin rəisi İlqar Rüstəmli və şəxsi heyəti Haxverdi Əkbərova atası

**KOROĞLU ƏKBƏROVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Ağsu RPŞ-nin rəisi Fəxrəddin Abbasov və şəxsi heyəti Haxverdi Əkbərova atası

**KOROĞLU ƏKBƏROVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Astara RPŞ-nin rəisi Azər Cahangirov və şəxsi heyəti Haxverdi Əkbərova atası

**KOROĞLU ƏKBƏROVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Qax RPŞ-nin rəisi Elnur Mehdiyev və şəxsi heyəti Haxverdi Əkbərova atası

**KOROĞLU ƏKBƏROVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Xocavənd RPŞ-nin rəisi Yadigar Hüseynov və şəxsi heyəti Haxverdi Əkbərova atası

**KOROĞLU ƏKBƏROVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

İmişli RPŞ-nin rəisi Ayaz Cəfərov və şəxsi heyəti Haxverdi Əkbərova atası

**KOROĞLU ƏKBƏROVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Füzuli RPŞ-nin rəisi Xəqani Məmmədov və şəxsi heyəti Haxverdi Əkbərova atası

**KOROĞLU ƏKBƏROVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

**ALLAH RƏHMƏT ELƏSİN!**

MÜBARİZ KEŞİKDƏ

qəzetinin Kompyuter Mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.

Qəzet həftədə bir dəfə çıxır.
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.

Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və “Mübariz keşikdə“yə istinad olunmalıdır.

Redaktor
CAVİD XASPOLADOV

Qeydiyyat № 155. İndeks: 66993
Sayı 10.298

Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-96-30; 590-93-92; 590-99-30

Çapa imzalanmışdır 17:00